# Azərbaycan Respublikası
# Qobustan rayonu İcra hakimiyyətinin başçısının
# SƏRƏNCAMI

**№031** **01 mart 2021-ci il**

**“Yaşıllaşdırma müəssisəsi" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında**

Bütün bölgələrdə olduğu kimi, Qobustan rayonunda da mövcud yaşıllıqların bərpası və uçotu, onların artırılması, cins tərkibinin yaxşılaşdırılması, yaşıllıqlar olmayan ərazilərdə yaşıllıq salınması işləri həyata keçirilir. Son 10 ildə rayonda 20 hektardan artıq yaşıllıq zolağı salınmış, 60 mindən artıq müxtəlif növ ağac və gül kolları əkilmişdir.

Yaşıllıqların düzgün uçotunun təşkili, onların qorunub saxlanılması və yeni yaşıllıqların salınması, yaşıllıqların cins tərkibini yaxşılaşdırmaq, qarşımızda duran mühüm vəzifələrdən biridir. Qeyd olunanları nəzərə alaraq və "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin 3.9.10-cu bəndində nəzərdə tutulmuş vəzifələrin icrasını təmin etmək məqsədilə

**QƏRARA ALIRAM:**

1.Dövlət büdcəsindən və digər sahələrdən daxil olan vəsaitlərdən qənaətlə və səmərəli istifadə edilməsi, artıq xərclərin qarşısının alınması və işin keyfiyyətinin artırılması məqsədi ilə Qobustan Kommunal Müəssisələri Kombinatının tabeçiliyində fəaliyyət göstərən "Yaşıllaşdırma sahəsi" bazası əsasında Rayon İcra Hakimiyyətinin tabeçiliyində olan təsərrüfat hesablı, qismən dövlət büdcəsi tərəfindən maliyyələşən, müstəqil balansa malik "Qobustan yaşıllaşdırma" Məhdud Məsuliyyətli Cəmiyyəti yaradılsın.

2.Yaşıllaşdırma sahəsinə aid olan texnika və avadanlıqların (əsas vəsaitlərin) " Qobustan-Yaşıllaşdırma müəssisəsi" MMC-yə təhvil verilməsi təmin edilsin.

3.Yaşıllaşdırma sahəsinin işçiləri əmək haqqı "Yaşıllaşdırma müəssisəsi" MMC-yə keçirilsinlər.

4.Sərəncamın icrasına nəzarət başçının müavini-Sosial-iqtisadi inkişafın təhlili və proqnozlaşdırılması şöbəsinin müdiri Məharət Əkbərova həvalə edilsin.

**Qobustan rayonu İcra**
**hakimiyyətinin başçısı: A.M.Məmmədov**